# İqtisadi inkişafın yeni mərhələsi




***Müasir dövrdə ölkələrin davamlı iqtisadi inkişafı, həm də innovativ yanaşmalara əsaslanır. Azərbaycanın bu istiqamətdə atdığı addımlar arasında turizmin inkişafı, investisiya mühitinin liberallaşdırılması və yeni sahibkarlıq platformalarının yaradılması əsas yer tutur. Xüsusilə də son dövrlərdə Xəzər dənizində premium turizm infrastrukturunun formalaşdırılması üzrə nəzərdə tutulan hüquqi mexanizmlər ölkə iqtisadiyyatının gələcək trayektoriyasını müəyyən edən əsas istiqamətlərdən biri kimi qiymətləndirilir.***

Azərbaycan Respublikasının Milli Məclisində iyunun 21-də keçirilən iclasda bir sıra qanunvericilik aktlarına dəyişiklikləri nəzərdə tutan yeni qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarılıb. Sənəd Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Cinayət Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Dövlət rüsumu haqqında", "Reklam haqqında", "Lisenziyalar və icazələr haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında", həmçinin "Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" qanunlara dəyişiklikləri əhatə edir.

Müzakirələrdə xüsusi olaraq vurğulanıb ki, əsas hədəflərdən biri Xəzər dənizinin Azərbaycanın payına düşən hissəsində yaradılan süni torpaq sahələrində sahibkarlıq fəaliyyətinin hüquqi əsaslarla tənzimlənməsidir. Bu məqsədlə qeyd olunan qanuna "Süni torpaq sahələrində sahibkarlıq fəaliyyəti" adlı yeni fəsil əlavə olunur. Süni torpaq sahəsi dedikdə, Xəzər dənizində Azərbaycanın suveren hüquqlarına malik olduğu hissədə texniki müdaxilə yolu ilə yaradılan, hüquqi baxımdan ölkənin ərazisi sayılan torpaq sahələri nəzərdə tutulur. Layihə bu sahələrdə müxtəlif sahibkarlıq fəaliyyətlərinin, o cümlədən kazino və əyləncə infrastrukturu kimi premium xidmət sahələrinin hüquqi əsaslar daxilində həyata keçirilməsini hədəfləyir.

Müzakirələrdə qeyd edilib ki, bu sahədə ən perspektivli istiqamət premium və elit turizmin inkişafıdır. Bu seqmentin əsas xüsusiyyətləri yüksək keyfiyyətli xidmət, müasir infrastruktur və komfortlu istirahət imkanları ilə yanaşı, əyləncə və fərqlilik təqdim edən əlavə imkanları da əhatə etməsidir. Məhz bu kontekstdə kazinoların fəaliyyətinə icazə verilməsi məsələsi gündəmə gətirilib. Qeyd olunub ki, ölkədə artıq premium turizm sahəsində bir sıra təşəbbüslər var və bu istiqamətdə genişlənmə potensialı mövcuddur. Süni torpaq sahələri bu baxımdan tamamilə yeni imkanlar yaradır. Bu ərazilərdə beynəlxalq standartlara uyğun hotellər, restoranlar, əyləncə mərkəzləri və kazinoların fəaliyyətə başlaması xarici turistlərin ölkəyə axınını artırmaqla yanaşı, Azərbaycanın beynəlxalq turizm xəritəsindəki mövqeyini də möhkəmləndirə bilər. Kazinolar bu modeldə əlavə element kimi çıxış edir, yəni əsas məqsəd gəliri yüksək olan turist qrupunu cəlb etmək və ölkənin qeyri-neft sektorunda dinamizmi gücləndirməkdir.

Dünya təcrübəsi göstərir ki, dənizdə süni torpaq sahələrinin yaradılması texniki cəhətdən mürəkkəb və maliyyə baxımından böyük resurslar tələb edən prosesdir. Bu cür layihələr yalnız dövlət və özəl sektorun səmərəli əməkdaşlığı əsasında reallaşa bilir. İnfrastrukturun qurulması, kommunikasiya sistemlərinin çəkilməsi və sahibkarlıq subyektlərinin cəlb edilməsi isə bu sahəyə yönəldilən investisiyaların həcmini və əhəmiyyətini daha da artırır. Məhz buna görə, təqdim edilən qanun layihəsində süni torpaq sahələrində qanunla qadağan olunmayan bütün sahibkarlıq fəaliyyət növlərinə icazə verilməsi nəzərdə tutulur. Bu yanaşma hüquqi baxımdan azad, iqtisadi baxımdan çevik və təşviqedici mühitin yaradılması deməkdir. Premium turizm adi turizm növlərindən fərqlənərək yüksək keyfiyyətli xidmətlər, fərdi yanaşmalar, müasir infrastruktur, təhlükəsizlik və komfort istirahət şəraiti ilə seçilir. Layihədə nəzərdə tutulan dəyişikliklərə əsasən, süni torpaq sahələrində kazino və oyun infrastrukturu kimi əyləncə sahələrinin təşkili üçün hüquqi baza yaradılır. Lakin bu, ölkədə oyun biznesinin genişlənməsi və ya təşviqi anlamına gəlmir. Əksinə, oyunları çoxsəviyyəli hüquqi nəzarət və ciddi tənzimləmə mexanizmləri ilə təmin etməyi nəzərdə tutur.

Dünyanın bir sıra ölkələrində, Makao, Sinqapur və Monako kimi mərkəzlərdə oyun biznesi iqtisadi artımın mühüm mənbəyi kimi çıxış etsə də, bu fəaliyyət liberal və nəzarətsiz şəkildə aparılmır. Əksinə, bu sahələrdə ciddi lisenziyalaşdırma, vergitutma və sosial məsuliyyət mexanizmləri mövcuddur. Azərbaycan modeli də bu yanaşmanı əsas götürür.

Bu da ölkənin qeyri-neft sektoru üçün yeni bir nəfəs, Xəzər dənizi sahilləri üçün isə gələcəkdə beynəlxalq səviyyəli turizm və biznes mərkəzinə çevrilmək imkanı yarada bilər. Ən əsası, bu iqtisadi liberallaşma ilə ictimai məsuliyyət arasında balansın qorunması nümunəsidir.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**

Respublika .- 2025.- 22 iyun (№ 127).- S.11.